# 2026-2030-cu illər üçün İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının elmi-tədqiqat mövzusunun

# PLAN-ANNOTASİYASI

*İCRAÇI:* *Yaqut Hacıyeva*
*t.e.d., dosent,*
*ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri*

***MÖVZUNUN ADI***

Ahıl və qoca insanların demoqrafik xüsusiyyətlərinin, sosial əhəmiyyətli xəstəliklərinin öyrənilməsi və onların ambulator səviyyədə monitorinqinin təkmilləşdirilməsi yolları

*Elmi rəhbər:*

t.e.d.,dosent Hacıyeva Y.H.

*Kafedrada elmi işlər üzrə məsul şəxs*

t.ü.f.d. assistent Bədələva A.O.

***PROBLEM***

**HERONTOLOGİYA**

## *MÖVZUNUN AKTUALLIĞI*

2030-cu ilə qədər yaşlı insanların səhiyyə resurslarının 75%-ni istehlak edəcəyi təxmin edilir. Əhalinin qocalmasının eskalasiyası ilə əlaqədar sağlam qocalmanın təmin edilməsi əsas ictimai səhiyyə probleminə çevrilmişdir.

## *MÖVZUNUN AKTUALLIĞI*

İnkişaf etməkdə olan ölkələrin üzləşdiyi ən aktual demoqrafik problemlərdən biri əhalinin davamlı qocalmasıdır.

BMT-nin məlumatına görə, 65 yaşlı insanların nisbəti 9%-i ötüb və 2025-ci ilə qədər dünyada 65 yaşdan yuxarı 800 milyondan çox insan olmuşdur ki, bu da əhalinin təxminən 10%-ni təşkil edir.

2050-ci ilə qədər bu nisbət 16%-ə çata bilər.

Bu o deməkdir ki, 65 və yuxarı yaş qrupunda olan insanların sayı digər yaş qruplarına nisbətən daha sürətlə artacaq .

## *MÖVZUNUN AKTUALLIĞI*

Yaşlı əhalinin sayının artması və uzunmüddətli qayğıya ehtiyacın yüksəlməsi, səhiyyə və sosial xidmətlərin maliyyələşdirməsində əlavə xərclərin yaranmasına və resursların daha gərgin bölüşdürülməsinə səbəb olur.

1970-ci ildə Aİ-nin sosial təminat xərcləri ümumi milli məhsulun (ÜDM) 4%-ni,
2010-cu ildə isə 8,4%-ni təşkil etmişdir;
2030-cu ilə qədər 15%-ə çatacağı gözlənilir .

Gələcəkdə təkcə yaşlıların deyil, xüsusən də yaşı 80-dən yuxarı olanların sayı artacaq ki, bu da səhiyyə xidmətlərinə tələbatı xeyli artırır.
Bu yaş qruplarında xroniki xəstəliklərin yayılması uzunmüddətli qayğıya olan tələbata əhəmiyyətli dərəcədə təsir göstərir.

Epidemioloji tədqiqatlar göstərir ki, tənhalıq yaşlı insanlar üçün xüsusi problemdir. 80 və daha yuxarı yaşlı insanların 40%-dən 50%-ə qədəri tez-tez tənha olduqlarını bildirirlər.

## AİLƏ VƏZİYYƏTİ YAŞLILARIN HƏYAT TƏRZİ İLƏ BİRBAŞA BAĞLIDIR.

Ahıl kişilər arasında 8,2%-i ailələrdə yaşayır, 74%-dən çoxu evlidir və həyat yoldaşları ilə yaşayır.

Ahıl qadınlar üçün vəziyyət tamamilə fərqlidir: 50% ailələrdə yaşayır və yalnız 36% evlidir və həyat yoldaşları ilə yaşayır.

65 və daha yuxarı yaşda olan qadınlar adətən dul qalır və onlar arasında həyat yoldaşları ilə deyil, tək yaşamaq ehtimalı daha çoxdur.

## *MÖVZUNUN AKTUALLIĞI*

Ahılların və qocaların həyat keyfiyyətinə və gözlənilən ömür uzunluğuna ciddi təsir göstərən digər problem xəstəliyin yüksək yükudür.

65 yaşdan yuxarı hər bir insanda artıq dörd xəstəlik var və bu rəqəm hər keçən il daha da artır.

Yaşlılar arasında polifarmasiyanın yüksək səviyyəsini (5-8 və daha çox xəstəlik səbəbindən eyni vaxtda çoxlu dərman qəbul etməsi) nəzərə alaraq, səylərin bu insanların həyat keyfiyyətinə və həyat müddətinə əhəmiyyətli təsir göstərən ən çox yayılmış xəstəliklərin aşkarlanması və effektiv idarə edilməsinə yönəldilməsi təklif edilir.

## *TƏDQİQATIN MƏQSƏDİ*

Ahıl və qoca insanların yaş və cins strukturu, onların xəstələnmə spektri, sosial əhəmiyyətli xəstəliklərin epidemioloji yükünün qiymətləndirilməsinin qlobal xəstəlik yükünün (GDB) yanaşması əsasında aparılması və monitorinq sisteminin təkmilləşdirilməsi üzrə elmi əsaslandırılmış təkliflər işləyib hazırlamaq.

## TƏDQİQATIN VƏZİFƏLƏRİ

- Ahıl və qocalar arasında xəstələnmənin formalaşmasının yaşa bağlı sosial və gender xüsusiyyətləri, onun strukturu və komorbid nozoloji subyektlərin qruplarının müəyyən edilməsi - monitorinq və onun prioritet istiqamətlərini müəyyənləşdirmək, tibbi və laboratoriya tədbirlərinin həyata keçirilməsi üçün hədəflərin müəyyən edilməsi.
- Ahıl və qoca əhali arasında ölüm və əlilliklə itirilmiş illərin (YLL və YLD) struktur təhlilini apararaq, ambulatoriyalarda qocalara və yaşlı insanlara göstərilən herontoloji yardımın effektivliyinin göstəriciləri kimi keyfiyyət göstəriciləri və gözlənilən ömür uzunluğunu təyin etmək. Həkim-xəstə sistemindən istifadə etməklə xidmətdə olan çatışmazlıqların və onların aradan qaldırılmasının real mexanizmlərinin müəyyən edilməsi.

# TƏDQİQATIN VƏZİFƏLƏRİ

- Ahıl və qoca insanların şəxsi davranış xüsusiyyətlərinin və psixi - fiziki vəziyyətinin sosial əhəmiyyətli xəstəliklərin (DALY göstəricilərinin müqayisəli qiymətləndirilməklə) müalicəsinin effektivliyinə təsiri. Ahılların və qocaların maddi imkanları və onların tibbi xidmətinin təşkilində, dərman preparatları ilə təmin olunmasında və qəbuluna nəzarətdə ailənin rolunu müəyyən edilməsi.

- Həkimlərin və qocaların (və onların yaxın qohumlarının) herontoloji yardımla bağlı rəylərinin toplanması və onun təkmilləşdirilməsi üçün tövsiyələrin hazırlanması.

## *TƏDQİQAT İŞİNİN OBYEKTİ*

AHILLAR VƏ
QOCALAR



***TƏDQİQAT ÜSULLARI***

- -Statistik və epidemioloji təhlil üsulları (deskriptiv, analitik, korrelyasiya təhlili);
- - Qlobal Xəstəlik Yükü (GBD) metodologiyası;
- -GIS (coğrafi informasiya sistemi) və xəritələndirmə texnologiyaları;
- -Anket sorğuları və fokus qrup tədqiqatları;
- -Analitik modelləşdirmə və proqnozlaşdırma metodları;
- -Müqayisəli analiz (beynəlxalq göstəricilərlə müqayisə).

# *ELMİ YENİLİK*

- Yaşlılarda xəstəlik nümunələri etibarlı şəkildə müəyyən ediləcək və onların həyat keyfiyyətinə və gözlənilən ömür uzunluğuna ən çox təsir edən “hədəf xəstəliklər “ müəyyən ediləcək.
- “Hədəf xəstəliklər”lə effektiv mübarizənin yaşlıların və qocaların vəziyyətinə, onların həyat keyfiyyətinin və gözlənilən ömür uzunluğunun yaxşılaşmasına təsiri qiymətləndiriləcək.
- Yaşlıların (onların yaxın ailə üzvlərinin) və həkimlərin rəyləri nəzərə alınmaqla, ahıllara və qocalara herontoloji yardımın təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlanacaq.
- Ambulator xidmətlərdə mövcud monitorinq mexanizmlərinin səmərəlilik göstəriciləri müəyyən ediləcək.

# GÖZLƏNİLƏN NƏTİCƏLƏR

- Ahıl və qoca əhali üzrə xəstəlik (GDB) və əlillik (YLD) yükünün elmi əsaslandırılmış qiymətləndirilməsi;
- Ölüm və əlillik göstəricilərinin regionlar üzrə xəritələndirilməsi;
- Qlobal xəstəlik yükü modeli əsasında yerli göstəricilərin inteqrasiyası;
- Ambulator monitorinq və erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi üzrə praktik tövsiyələr;
- İctimai səhiyyə qərarlarının elmi əsaslara söykənməsi;
- Beynəlxalq əməkdaşlıq və elmi nəşrlərin sayında artım.

## *ELMİ-PRAKTİK ƏHƏMİYYƏTİ*

- Ən məlumatlı beynəlxalq sorğu anketləri seçiləcək və herontoloji tədqiqatlar üçün Azərbaycan dilinə tərcümə olunmaq üçün uyğunlaşdırılacaq.
- Davamlı monitorinq və prioritet terapevtik və diaqnostik müdaxilə üçün komorbid xəstəliyin hədəf qrupları müəyyən ediləcək.
- Yaşlı əhali üzrə xəstəlik və əlillik yükü elmi əsaslandırılmış şəkildə qiymətləndiriləcək
- Ambulator monitorinq və erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi üzrə praktik tövsiyələr təklif olunacaq
- Əhalinin profilaktik qayğıya motivasiyasını artırmaq üçün tövsiyə olunan maarifləndirmə işlərinə yanaşmalar təklif olunacaq.

***TƏDQİQATIN YERİNƏ YETİRİLƏCƏYİ YER***

**TƏBİB**

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

**Bakı Herontoloji Mərkəzi**

**Şəhər poliklinikaları**

***İş 1.***

Ahıl və qoca insanların hal-hazırda olan demoqrafik vəziyyəti

***MƏSUL İCRAÇI***

t.e.d. professor Ağayev A.Ə.

***İCRAÇILAR***

dos.Babayev K., dos.Babayeva A.,

dos. Baxışlı F., ass.Əliyeva G.,

ass.Mehdiyeva A., ass. Mirhadi S.,

baş lab. Bağırova Ş.

***İş 2.***

Ahıl və qoca əhalidə olan xəstələnmələr və onların həyat keyfiyyətinə, həmçinin ömür uzunluğuna təsiri.

***MƏSUL İCRAÇI***

t.e.d. professor Ələkbərov M.M.

***İCRAÇILAR***

dos.Cabbarova N., dos.Göyüşova N.,
ass.Bədəlova A., ass.Tağıyeva A.,
ass.Həbibova K., ass.Süleymanlı G.,
ass. Babayev P.

## *İş 3.*

Tibbi-sosial cəhətdən daha çox əhəmiyyətli olan "hədəf" xəstəliklərin seçilməsi və onların effektiv ambulator monitorinqi üçün təşkilatı yanaşmalar

***MƏSUL İCRAÇI***

t.ü.f.d. dosent Liftiyev R.B

***İCRAÇILAR***

dos.Nağıyeva R.,
b.m. Məmmədov F.,
ass.Musayev R.,
dos. Məhərrəmov M.,
ass. Rəsulova R.
ass.Cəfərova A.,

## *İş 1.*
## Ahıl və qoca insanların hal-hazırda olan demoqrafik vəziyyəti

***MƏRHƏLƏLƏR***

1. Ahıl və qoca insanların demoqrafik göstəricilərinin öyrənilməsi istiqamətində təşkilatı yanaşmaların işlənib hazırlanması.Seçilmiş anketlərin öyrənilməsi, ən əlçatan və təsirli olanların Azərbaycan dilinə tərcümə edib, yaşı 65-dən yuxarı olan əhaliyə paylanaraq, onların izahedici müzakirələrinin aparılması

2. Respublikada demoqrafik vəziyyət, ahıl və qocaların sayının artım dinamikası, onların yaş və cins tərkibi, habelə sosial vəziyyəti haqqında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarının təhlili.

3. Yaş və cinsə görə tam doldurulmuş 2000-ə yaxın anketin qruplaşdırılması.

4. Sosial və yaşayış mühitinin qiymətləndirilməsi: yaşı 65-dən yuxarı olan əhalinin sosial və yaşayış mühiti üzrə qruplaşdırılmış anketlərin təhlili.

5. Ahıl və qoca insanların həyat keyfiyyətinə, ömür uzunluğuna - yaş, cins və sosial amillərin təsiri

# *İş 2.*
# Ahıl və qoca əhalidə olan xəstələnmələr və onların həyat keyfiyyətinə, həmçinin ömür uzunluğuna təsiri.

***MƏRHƏLƏLƏR***

.1.Paylanmış anketlərin analizi nəticəsində ahıl və qoca insanlarda xəstəliyin baş vermə tezliyinə və onların həyat keyfiyyətinə, həmçinin ömür uzunluğu gözləntisinə təsiri ilə qruplaşdırılması.

2. Ahıl və qoca insanların tibbi yardıma uyğunluq səviyyəsinin qiymətləndirilməsi və tibbi reseptlərə əməl olunması.

3. Ahıl və qoca insanlarda xəstəliyə səbəb olan ən əhəmiyyətli sosial amillərin müəyyən edilməsi.

4. Ahıl və qoca insanlara qayğı vəziyyətinin qiymətləndirilməsi, onun çoxkomponentli polifarmasiyanın formalaşmasına təsiri və onların müalicəsinin effektivliyi.

5.Tək yaşayan və ailə dəstəyindən məhrum olan yaşlıların və qocaların vəziyyəti.

## *İş 3.*

## Tibbi-sosial cəhətdən daha əhəmiyyətli olan «hədəf» xəstəliklərin seçilməsi və onların effektiv ambulator monitorinqi üçün təşkili

***MƏRHƏLƏLƏR***

1.Yaşlı insanlar arasında onların həyat keyfiyyətinə və gözlənilən ömür uzunluğuna ən çox təsir edən və ambulator nəzarət tələb edən yüksək yayılma ilə "hədəf" xəstəliklərin müəyyən edilməsi.

2. Ahıl və yaşlı insanların hədəf xəstəliklərinin ambulator monitorinqinə və tibbi təyinatlara, eləcə də dərman qəbulu riayət səviyyəsini artırmaq üçün daha əlçatan və səmərəli məlumatlandırıcı-izahedici tədbirlərin inkişafı.

3. Hədəf xəstəliklərə nəzarətin effektivliyindən və qrupların uzunmüddətli müşahidəsindən asılı olaraq yaşlı və qoca insanların fiksə olunmuş qruplarının formalaşdırılması.

4.Profilaktik tədbirlərin keçirilməsi ilə əlaqədar fiksə olunmuş qruplarda motibasiyanın qiymətləndirilməsi

5. Fiksə olunmuş qruplarda hədəf xəstəliklərə nəzarətin effektivliyinə qiymətləndirilmə.

**DİQQƏTİNİZƏ GÖRƏ**

**TƏŞƏKKÜR EDİRƏM.**